QIZIL GƏDƏBƏY

GƏDƏBƏY RAYON İCRA HAKİMİYYƏTİNİN QƏZETİ

Qəzet 1930-cu ildən çıxır • *№ 07 (6387)* • *İyun 2014-cü il* • *Qiyməti 30 qəpik*

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ MİLLİ İFTİXARIDIR

(Milli Qurtuluş Gününə həsr olunmuş dəyirmi masada bu barədə qürurla söz açıldı)

15 iyun 1993-cü il xalqımızın yaddaşından heç vaxt çıxmayacaq. Çünki bu gün necə deyərlər, Azərbaycanın üzərinə gün doğdu. Dünya şöhrətli siyasətçi, türk dünyasının fenomenal rində yenidən hakimiyyətə qayıdan ümummilli liderin tükənməz istedadı, möhtəşəm idarəçiliyi, böyük və təkrarsız siyasi gedişi, diplomatik məharəti çox keçmədi ki, xalqımıza tarixi uğur- cəsarətli addımları sayəsində aradan götürülərək ölkədə möhkəm sabitlik yarandı. Eyni vaxtda xarici siyasətdə Azərbaycanın beynəlxalq durumuna xələl gətirən səhvlər axarına hı naminə ölkə iqtisadiyyatında da inkişafın yeni mərhələsinə başlandı. Məhz bu inkişafın nəticəsidir ki, indi Azərbaycan dünya dövlətləri arasında ən lider dövlətlərdən birinə çevrilmiş- nin rəisi Şahin Cəlilov, rayon icra hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Rüstəm Nağıyev, Yeni Azərbaycan Partiyası rayon təşkilatının aparat rəhbəri Namiq Rüs-

öndəri olan Heydər Əliyev xalqın təkid və tələbi ilə Naxçıvandan Bakıya gələrək respublika Ali Sovetinin sədri seçildi. Xatırladaq ki, elə həmin il iyunun 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə verildi... 15 iyun günü isə ümummilli liderin adı tariximizə təkcə Azərbaycan hakimiyyətinə ikinci dəfə qayıdışı kimi deyil, həm də Milli Qurtuluş Günü kimi yazıldı.

Rayon icra hakimiyyəti iyunun 14-də bu tarixi gün münasibətilə maraqlı və məzmunlu tədbir keçirdi. Dəyirmi masa ətrafında keçirilən tədbiri icra başçısı Ramiz Yediyarov açaraq Milli Qurtuluş Gününün mahiyyəti barədə ətraflı məlumat verdi. O, qeyd etdi ki, Azərbaycanın ən ağır günlə-

lar gətirdi.

Azərbaycan müstəqilliyinin, dövlətçiliyimizin təhlükə ilə üzləşməsinin qarşısı alındı. Vətəndaş qarşıdurmasına son qoyuldu. Qeyri-qanuni fəaliyyət göstərən silahlı qüvvələr zərərsizləşdirildi. Bir sözlə, xalqın mənafeyinə, milli-mənəvi dəyərlərimizə, dövlətə dövlətçiliyə zidd olan bütün hallar bu dahi şəxsiyyətin düşdü. Aparıcı ölkələrlə münasibətdə balanslaşdırılmış siyasət bərqərar olundu. Respublikamız sanballı beynəlxalq və regional təşkilatların tamhüquqlu, fəal üzvünə çevrildi.

Ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdışının bu və ya digər tarixi məqamlarını konkret faktlarla diqqətə çatdıran icra başçısı onu da vurğuladı ki, xalqın rifahı dir və bu yolda da inamla gedir.

Başqa cür də ola bilməz. Ona görə ki, Azərbaycanın sükanı xalqımızın xilaskar oğlu Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyev kimi reytinqli bir rəhbərin əlindədir.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Qüdrət Paşayev, Milli Təhlükəsizlik Nazirliyi rayon şöbəsitəmov və başqaları tədbirdə çıxış edərək Azərbaycan xalqının milli iftixarı olan Heydər Əliyevin Azəbaycan dövlətçiliyinin qorunub saxlanması, xalqımızın daxili və xarici düşmənlərinə qarşı mübarizəni bacarıqla istiqamətləndirməsi, dövlətin bel sütunu hesab edilən Milli Ordunun mökəmləndirilməsi, hüquqi dövlət quruculuğu yolunda misilsiz əzmkarlıq göstərməsi istiqamətində gördüyü tarixi xidmətlərdən qürurla söz açdılar.

Çıxışlarda deyildi ki, ulu Tanrı Heydər Əliyevin həyat məktəbindən dərs almış Azərbaycan Prezidenti İlham Əliyevə ömür versin. O, xalqın mənafeyi naminə Heydər Əliyevin daxili və xarici siyasət xəttini uğurla və ləyaqətlə həyata keçirir. Bu siyasətə sədaqətli olduğunu bütün dünyaya nümayiş etdirir.

"Qızıl Gədəbəy"

"N" SAYLA HƏRBİ HİSSƏDƏ BAYRAM GÖRÜŞÜ

Rayon icra hakimiyyəti Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 96-cı ildönümü ilə əlaqədar iyunun 26-da "N" saylı hərbi hissədə bayram görüşü keçirmişdir.

Hissənin şəxsi heyəti tərəfindən səmimiyyətlə qarşılanan icra başçısı Ramiz Yediyarov əsgər və zabitləri əziz bayram günü münasibətilə ürəkdən təbrik edərək Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən və bu gün Prezident İlham Əliyevin fəaliyyətində ordu quruculuğuna xüsusi önəm verilməsindən qürurla söhbət açmışdır.

Qeyd olunmuşdur ki, özünün inkişaf dövrünü yaşayan Azərbaycan Silahlı Qüvvələri hazırda regionun ən güclü dayaqlarından birinə çevrilmişdir.

Hissənin rəhbərliyi və şəxsi heyəti tərəfindən razılıqla qarşılanan bayram tədbirində rayon icra hakimiyyətinin başçısı xidmətdə fərqlənən Vətən övladlarından bir qrupuna fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim etmişdir.

Sonda bayram konserti olmuşdur.

"Qızıl Gədəbəy"

İNSAN HÜQUQLARININ TƏMİN OLUNMASI ÜMUMDÖVLƏT VƏZİFƏSİDİR. ULU ÖNDƏR BELƏ DEMİŞDİR

Respublikanın insan hüquqları üzrə müvəkkilinin (Ombudsman) Gəncə regional mərkəzi rayon icra hakimiyyətilə birgə Azərbaycanda Milli İnsan Hüquqları günü ilə əlaqədar dəyirmi masa keçirmişdir. Rayon icra hakimiyyətində baş tutan dəyirmi masada mərkəzin rəhbəri Səbuhi Abbasov insan hüquqları üzrə müvəkkil Elmira Süleymanovanın tədbir iştirakçılarına təbrikini çatdırdıqlan sonra bu təşkilatın tarixi barədə məlumat vermişdir.

Qonaq qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 17 iyun tarixli Fərmanı ilə ulu öndər Heydər Əliyevin 1998-ci ildə ölkəmizdə ilk "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunduğu nəzərə alınaraq hər il 18 iyun gününün Azərbaycanda Milli İnsan Hüquqları günü kimi qeyd olunması qərara alınmışdır.

Ölkəmizdə həyata keçirilən hüquqi islahatların

ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması olmuşdur. İnsan hüquqlarının təmin olumasını ümumdövlət vəzifəsi hesab edən ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanında, habelə həmin ildə təsdiq edilən Dövlət Proqramında insan hüquqları üzrə müvəkkil təsisatının yaradılması nəzərdə tutulmuşdur.

Mərkəzin rəhbəri 2001-ci ildə Milli Məclisdə "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili haqqında" Konstitusiya Qanununun qəbul edilməsi, 2002-ci ildə ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili haqqında" imzaladığı Konstitutsiya Qanununun tətbiqi barədə fərman, "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili haqqında" Kostitusiya Qanunun tətbiqi ilə əlaqədar bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə qəbul edilən Qanun, 2006-cı ildə Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" imzaladığı Sərəncam, Sərəncamda Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsinin dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi göstərilməsi, nəhayət BMT və Azərbaycan hökuməti arasında "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" imzalanan memorandum barədə də ətraflı məlumat verərək, bu hüquqi aktlarda nəzərdə tutulmuş vəzifələrin ölkədə uğurla həyata keçirilməsini diqqətə çatdırmışdır.

Mərkəzin rəhbəri sonra Ombudsman aparatının gördüyü işlərdən danışmış, ötən illərdə insan hüquqları üzrə bir çox silsilə tədbirlərin həyata keçirilməsini, regionlarda da insan hüquqları üzrə müvəkkilin regional mərkəzlərinin açılmasını vurğulayaraq Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində görülən işlərin beynəlxalq təşkilatlarda da yüksək qiymətləndirildiyini qeyd etmişdir.

Rayon icra hakimyyəti başçısı aparatının hüquq şöbəsinin müdiri Zülfüqar İsgəndərov tədbirdə çıxış edərək ətraflı məlumata görə qonağa razılığını bildirmiş, insan hüquqlarının qorunması və müdafiəsi sahəsində qəbul olunan hüquqi aktların rayonda icrasına xüsusi önəm verilməsinin həmişə gündəmdə olmasını vurğulamışdır.

Sonda dəyirm masa iştirakçılarını maraqlandıran suallara aydınlıq gətirilmişdir.

"Qızıl Gədəbəy"

DÖVLƏT QULLUQÇULARINA QAYĞIDAN RAZILIQ İFADƏ OLUNMUŞDUR

Rayon icra hakimiyyətində Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş 23 iyun – Dövlət Qulluqçuları günü münasibətilə tədbir keçirilmişdir.

Tədbiri rayon icra hakimiyyətinin başçısı Ramiz Yediyarov açaraq rayonun idarə, müəssisə və təşkilatlarında çalışan dövlət qulluqçularını peşə bayramı ilə əlaqədar ürəkdən təbrik etmişdir.

Təbrik nitqində dövlət qulluqçularına ən xoş arzularını və bir sıra tövsiyələrini bildirən icra başçısı qeyd etmişdir ki, ölkədə vahid dövlət siyasətinin formalaşmasında 2000-ci ildə qəbul olunan "Dövlət qulluğu haqqında" Qanun mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə ayrı-ayrı çıxışlar da səslənmiş, dövlət qulluqçularına göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə dərin minnətdarlıq ifadə olunmuşdur.

"Qızıl Gədəbəy"

NARKOTİKLƏRLƏ MÜBARİZƏ GÜNÜ QEYD EDİLMİŞDİR

Gədəbəy Aşıq Məktəbində 26 iyun – Narkotiklərlə mübarizə gününə həsr edilmiş tədbir keçirilmişdir.

İdarə, müəssisə, təşkilat rəhbərlərinin, hüquqmühafizə orqanları nümayəndələrinin, məktəb direktorlarının, icra nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Qüdrət Paşayev Narkotiklərlə mübarizə günü ilə bağlı məruzə etmişdir.

Q.Paşayev diqqətə çatdırmışdır ki, Narkotiklərlə mübarizə günü BMT-nin qərarı ilə təsis edilmişdir. Müsbət nəticədir ki,

Gədəbəy rayonunda narkotik maddələr qəbul etmə halları demək olar ki, yox dərəcəsindədir. Buna baxmayaraq, arxayınlaşmaq olmaz. Əhali arasında, xüsusi ilə də gənclər arasında mütəmadi olaraq maarifləndirmə işlərini davam etdirmək lazımdır.

Tədbirdə çıxışlar da olmuş, bəşəriyyət üçün böyük bəla hesab edilən narkomaniyaya qarşı hamılıqla mübarizə aparmağın vacibliyi qeyd edilmişdir.

"Qızıl Gədəbəy"

BƏLƏDİYYƏ VERGİLƏRİNİN TOPLANMASINDA PROBLEMLƏR DƏ VAR, LAQEYDLİK DƏ

Ölkəmizdə bələdiyyələr 14 il əvvəl yaradılmışdır. Bələdiyyə büdcələri də gəlirlər və xərclərin maddələrindən ibarətdir. Hər il dövlət büdcəsi kimi bələdiyyə büdcələri də növbəti il üçün proqnozlaşdırılır. Bələdiyyələrin statusu, maliyyəsi haqqında kifayət qədər qanunlar qəbul edilmişdir. "Dövlət büdcə sistemi haqqında" Qanunun 4-cü fəslində bələdiyyələrin maliyyə fəaliyyəti hərtərəfli şərh edilərək, konkret vəzifələr müəyyənləşdirilmişdir. Bundan əlavə respublika Vergilər Nazirliyinin xəttilə "Bələdiyyə vergiləri və uçot sistemi haqqında" metodiki vəsait nəşr olunaraq, bələdiyyələrə paylanmışdır.

Bələdiyyə büdcəsinin gəlir hissəsinhdə əsas yeri fiziki şəxslərdən alınan torpaq və əmlak vergiləri tutur. Doğrudur, az da olsa torpaq vergisi toplanır. Amma təəssüflər olsun ki, əmlak vergisinin toplanmasında laqeydlik hökm sürür. Bələdyyələrin əksəriyyətində fiziki şəxslərdən əmlak vergisi üzrə vergi ödəyicilərinə şəxsi hesab açılmadığından yığım aparılmır. Bu, o deməkdir ki, bələdiyyələr hər büdcə ilində on min manatlarla pul vəsaiti itirirlər. Halbuki, onların pul vəsaitlərinə çox böyük ehtiyacları vardır. Buna nə ad vermək olar ki, bir çox bələdiyyələrdə çalışan işçilərə aylarla, hətta illərlə əmək haqqı verilmir. Eyni zamanda DSMF-na və başqa xidmət idarələrinə olan borclar ödənilmir.

Bələdiyyə sədrləri vəziyyəti vergi ödəyicilərinə məxsus inventarlaşdırılmış binaların dəyərləri haqqında Daşınmaz Əmlakın Dövlət Reyester İdarəsinin məlumat verməməsi ilə izah edirlər. Bunlar ancaq bəhanədir. Problemi aradan qaldırmağın başqa bir yolu da var. Məsələn, əmlak vergi ödəyicisinin evinin yaaşyış sahəsi 100 kvadratmetr, evin köməkçi sahələri (çardaqlar, zirzəmilər) 80 kvadratmetrdirsə (100X250 manat = 25000 manat, 80X100 manat =8000 manat) iki məbləğin cəmindən güzəşt olunan 5000 manat çıxmaqla vergi məbləğini təyin etmək olar.

Göründüyü kimi problemi çox asan yolla həll etmək mümkündür. Alnabad bələdiyyəsinin bu sahədə fəaliyyəti təqdirəlayiqdir və bu bələdiyyənin müsbət iş təcrübəsindən bəhrələnmək məsləhətdir.

Bələdiyyələrdə vergilərin toplanmasında yaranan problemlərdən biri də vergi ödəyicilərinin vergilərini ödəməkdən boyun qaçırmasıdır. Ona görə də yerli büdcələri formalaşdırmaq mümkün deyildir. Rayonda fəaliyyət göstərən sahibkarlar arasında da torpaq və əmlak vergilərini ödəməkdən boyun qaçıranlar az deyildir.

Vergilərin toplanmasına əngəl törədən digər səbəblər də var. Vergi ödəyiciləri sırasında hələ də dünyasını dəyişmiş adamların adlarına rast gəlinir. Gədəbəy bələdiyyəsinin əhatə etdiyi Pir məhəlləsində yaşayan vergi ödəyicilərinə isə torpaq şəhadətnaməsinin verilməməsi narahatlıq doğurur.

Əşrəf SƏFƏROV,
Gədəbəy bələdiyyəsinin vergi müfəttişi, iqtisadçı.

RAYON İCRA HAKİMİYYƏTİNİN SİFARİŞİ ƏSASINDA

Şəhərimizin "Kruk" deyilən hissəsində milli üslubda yeni bir tikili ucaldılmışdır.

Rayon icra hakimiyyətinin sifarişi əsasında ərsəyə gətirilən, ətrafa xüsusi yaraşıq verən, eyni zamanda öz görkəmi ilə hər kəsin marağına səbəb olan bu tikili saat qülləsidir.

Yada salaq ki, həmin yerdə müxtəlif illərdə, müxtəlif ad altında bir neçə tikili aparılmışdır. Amma heç biri bu qədər cəlbedici olmamışdır.

ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ MÜSABİQƏ KEÇİRİLİR

Hörmətli vətəndaşlar!

Nəzərinizə çatdırılır ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi "Daxili işlər orqanlarında orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi qaydaları haqqında" təlimata müvafiq olaraq DİO-da vakant vəzifələrin komplektləşdirilməsi üçün müsahibə və test imtahanları yolu ilə müsabiqə elan etmişdir.

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası almış, yaşı 30-dan yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vuran, boyu 165 santimetri keçən və Azərbaycan Respublikasının vətəndaşı olan kişilərin iştirak etməsi nəzərdə tutulmuşdur.

Müəyyən edilmiş şərtlərə cavab verən vətəndaşlar şəxsiyyət vəsiqəsini, ali təhsil haqqında diplomunu, hərbi biletini və əmək kitabçasını (olanlar üçün) təqdim etməklə müsabiqədə iştirak edə bilərlər.

Sənədlər 2014-cü il iyun ayının 9-dan iyul ayının 9-dək hər gün (şənbə və bazar günlərindən başqa) saat 10-dan, 17-dək rayon polis şöbəsində qəbul edilir.

Əlavə məlumat almaq üçün şöbənin kadrlar xidmətinə müraciət etmək olar.

Gədəbəy Rayon Polis Şöbəsi
Əlaqə telefonları: (050) 525-78-44; (32) 6-00-53

RAYON PROKURORLUĞU RAYONUN MÜXTƏLİF YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ VƏTƏNDAŞLARIN ƏNƏNƏVİ QƏBUL GÜNLƏRİNİ AŞAĞIDAKI CƏDVƏL ÜZRƏ DAVAM ETDİRİR

Yaşayış məntəqəsinin adı	Qəbul edən şəxs	Qəbul vaxtları
1. Söyüdlü kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	15.07.2014
2. İnəkboğan kənd İƏD-si üzrə	Rayon prokurorunun köməkçisi Nağıyev Anar Adil oğlu	24.07.2014
3. Qaradağ kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	05.08.2014
4. Novo-İvanovka kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	14.08.2014
5. İsalı kənd İƏD-si üzə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	28.08.2014
6. Qoşabulaq kənd İƏD-si üzrə	Rayon prokurorunun köməkçisi Nağıyev Anar Adil oğlu	04.09.2014
7. Şəkərbəy kənd İƏD-si üzrə	Rayon prokurorunun köməkçisi Nağıyev Anar Adil oğlu	15.09.2014
8. Slavyanka kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	25.09.2014
9. Böyük Qaramurad kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	09.10.2014
10. Düzrəsullu kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	20.10.2014
11. Daryurd kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	30.10.2014
12. Dəyəqarabulaq kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	10.11.2014
13. Çaldaş kaənd İƏD-si üzrə	Rayon prokurorunun köməkçisi Nağıyev Anar Adil oğlu	20.11.2014
14. Arıqıran kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	27.11.2014
15. Poladlı kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	11.12.2014
16. Düzyurd kənd İƏD-si üzrə	Rayon prokuroru Səfərov Allahverdi Qurbanəli oğlu	24.12.2014
		GƏDƏBƏY RAYON PROKURORLUĞU

MÜNASİB İŞ AXTARIRSINIZSA ƏMƏK YARMARKASINDA İŞTİRAK ETMƏYİNİZ MƏSLƏHƏTDİR

Hörmətli vətəndaşlar!

Nəzərinizə çatdırılır ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi rayon icra hakimiyyəti başçısı aparatının sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi ilə birlikdə 2014-cü il iyul ayının 25-də, saat 11-00-dan, 15-00-dək rayon mədəniyyət evində Əmək yarmarkası keçiriləcəkdir.

Rayonun iri dövlət müəssisələrinin, birliklərin, eləcə də şirkət və birgə müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçiriləcək yarmarkada iştirak etməyi unutmayın. Çünki siz yarmarkada iştirak etməklə öz ixtisasınıza və peşənizə münasib işlə təmin olunmaq, eyni zamanda boş iş yerləri haqqında ətraflı məlumat almaq imkanı qazanacaqsınız.

Sizi əmək üarmarkasında gözləyirik.

Gədəbəy rayon Məşğulluq Mərkəzi.

Ünvan: Gədəbəy şəhəri, Heydər Əliyev prospekti,

Əlaqə telefonları: 6-31-24; 6-01-28; 6-01-56.

ETİBARSIZ SAYILIR

Gədəbəy rayon aqrar islahat komissiyasının 17 dekabr 1997-ci il tarixli, 14 saylı iclas protokolu ilə təsdiq edilərək Novosaratovka kənd sakini Əliyeva Fazilə Çərkəz qızına məxsus olan mal tövləsinin 11 aprel 2001-ci il tarixli, 265 saylı texniki pasportu, qiymətləndirmə aktı, torpaq və əmlak üzərində mülkiyyət hüququ haqqında 27 aprel 2001-ci il tarixli şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

***

Gədəbəy rayon aqrar islahat komissiyasının 15 fevral 1999-cu il tarixli, 03 nömrəli qərarı ilə Zəhmət kənd sakini Sadıqov Vüqar Dəmir oğlunun adına qeydə alınmış JN – 404 A nömərli (kod 50514018) torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

***

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Şəmkir ərazi idarəsi tərəfindən 27.08.2010-cu il tarixdə Gədəbəy rayonu, Slavyanka kəndinin ərazisindən Gülməmmədova Yeganə Məhəmmədəli qızının adına verilmiş torpaq sahəsinin mülkiyyət hüququna dair reyestr nömrəsi 505013000970 və qeydiyyat nömrəsi 3110002600 olan çıxarış **itdiyi üçün** etibarsız sayılır.

***

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Şəmkir ərazi idarəsi tərəfindən 16.09.2010-cu il tarixdə Gədəbəy rayonu, Slavyanka kəndinin ərazisindən Əsgərova Səməngül Haqverdi qızının adına verilmiş torpaq sahəsinin mülkiyyət hüququna dair reyestr nömrəsi 505013000991 və qeydiyyat nömrəsi 3110002814 olan çıxarış **itdiyi üçün** etibarsız sayılır.

YENİ ELEKTRON VERGİ XİDMƏTLƏRİ İSTİFADƏYƏ VERİLMİŞDİR

Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin əhatəsinin genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən yeni – "Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış"ın təqdim edilməsi və Vergi partnyorluğu sazişinin bağlanması üçün ərizələrin qəbulu" elektron xidmətləri istifadəyə verilmişdir.

Məlum olduğu kimi, Vergi Məcəlləsinin 151-ci maddəsinin müddəalarına uyğun olaraq vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin aşağıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verir:

1-ci metod. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/4 hissəsini təşkil edir.

2-ci metod. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini bu rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün yuxarıda göstərilən 2-ci metodu seçdiyi halda hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda vergi orqanı 1 -ci metodu tətbiq edir.

Odur ki, 2-ci metodu seçdiyiniz halda www.e-taxes.gov.az və www.e-gov.az ünvanları vasitəsilə cari vergi ödəmələrinin hesablanması haqqında arayışı vaxtınıza qənaət edərək elektron qaydada tərtib edib vergi orqanına göndərə bilərsiniz.

Vergi Məcəlləsinin 13.2.49 və 15.1.15-1-ci maddələrinə əsasən vergi partnyorluğu sazişi vergi orqanı ilə vergi ödəyicisi arasında vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır və vergi ödəyiciləri bununla əlaqədar ərizə ilə yuxarıdakı elektron ünvanlar vasitəsilə vergi orqanına müraciət edə bilərlər.

VERGİLƏRİN ÖDƏNİLMƏSİNƏ NƏZARƏT VERGİ ORQANLARININ VƏZİFƏLƏRİNƏ AİD EDİLMİŞDİR

Qanunla müəyyən edilmiş vergiləri ödəmək Azərbaycan Respublikasının Konstitusiyası ilə hər bir kəsin borcu hesab olunur.

Vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət vergi orqanlarının vəzifələrinə aid edilmişdir. Həvalə edilən nəzarət funksiyalarının yerinə yetirilməsi vasitələrindən biri səyyar vergi yoxlamalarının keçirilməsidir. Mahiyyət etibarı ilə səyyar vergi yoxlaması (vergi auditi) vergi ödəyicilərinin vergi bəyannamələri, uçot sənədləri, vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri, habelə vergi ödəyicisinin elektron daşıyıcılarındakı məlumatları və s. əsasında bir qayda olaraq vergi ödəyicisində (yerlərə gedərək) aparılan vergi yoxlamasıdır.

Səyyar vergi yoxlaması növbəti və növbədənkənar ola bilər. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir və səyyar vergi yoxlaması, müstəsna hallar olmadıqda, 30 gündən artıq davam edə bilməz. Növbədənkənar səyyar vergi yoxlamasından fərqli olaraq, növbəti səyyar vergi yoxlaması zamanı vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından azı 15 gün əvvəl yazılı bildiriş göndərilməlidir. Bu müddət ərzində vergi ödəyicisi ilkin uçot sənədlərini və digər mühasibatlıq sənədlərini yoxlama üçün hazırlamalı, həmin müddət bitdikdən sonra səyyar vergi yoxlaması başlayarkən vergi orqanının qanuni tələbi ilə yoxlamanı aparan şəxsə təqdim etməlidir.

Bununla yanaşı, səyyar vergi yoxlamasının başladığı günədək vergi ödəyicisi müstəqil olaraq vergi hesabatlarını bir daha yoxlaya və vergi qanunvericiliyinin pozulması halları aşkar edildikdə vergi yoxlamasının başlandığı günədək onları aradan qaldıra bilər.

Qeyd: Bütün hallarda əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin 195 nömrəli telefon xidmətinə (iş günləri saat 9:00-dan 18:00-dək), 14 saylı Ərazi vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinə (Şəmkir şəhəri, H.Əliyev prospekti-5, telefon (02230-5-31-03) və Vergi ödəyicilərinə xidmət mərkəzinə (Gədəbəy şəhəri, V.Rüstəmov küçəsi, Telefon: (02232-6-36-57) müraciət edə bilərsiniz.

14 saylı Ərazi Vergilər İdarəsi

Baş redaktor:

ƏSƏDULLA CƏFƏROV

Ünvan: Gədəbəy şəhəri, M.Ə.Rəsulzadə küçəsi 6. TEL: (050) 369-32-19

Qeydiyyat № 1476 Sayı 676

Qəzet "Gəncə-Poliqrafiya" ASC-də ofset üsulu ilə çap edilir